## QƏRBİ AZƏRBAYCAN







# Dərələyəzi düşünəndə ürəyim qubar eləyir

*Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisi tarixinə görə ən qədim, coğrafi-siyasi mövqeyinə görə ən strateji, təbiətinə görə ən zəngin bölgələrdən biridir.*




Keçmişdə Azərbaycanın şimalı və cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29,8 min kvadratkilometr sahəni əhatə edən bu diyar çağdaş dünyada "Ermənistan Respublikası" adı ilə erməni - hay dövləti kimi tanınsa da, ərazisi son qarışına qədər qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Bunu həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi-mədəniyyət nümunələri - qədim yaşayış məskənləri nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sənduqələr, xaç daşlar, at-qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar da təsdiq edir.



Çoxsaylı maddi-mədəniyyət nümunələrinin bir hissəsi tarix boyu arası kəsilməz hərbi yürüşlər, müharibələr nəticəsində, xüsusilə zaman-zaman bu yerlərə köçürülüb gətirilən, tarixi torpaqlarımızda isti yuva tapan ermənilər tərəfindən məhv edilsə də, digər hissəsi isə erməniləşdirilərək mənimsənilsə də, daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək haylara heç də həmişə nəsib olmamışdır.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı, qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Qərbi Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı torpaqlarımızın işğalı erməni siyasətinin ayrılmaz hissəsinə çevrildi.

İrəvan xanlığı, Göyçə, Dərələyəz, Vedi və digər Qərbi Azərbaycan ərazilərində məskunlaşdırılan faşist xislətli erməni vandalları orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu, "böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş təxribatlar reallaşdırıldı.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Bu işdə keşişlər çox fəal oldular, silah-sursat alınmasında erməni quldurlarına maliyyə yardımı göstərdilər.

Birinci Dünya müharibəsindən sonra Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən "əks-inqilabçı ünsürlərlə mübarizə" şüarı altında ermənilər Qərbi azərbaycanlılara qarşı analoqu olmayan vəhşiliklər törətdilər.

Göyçə, Dərələyəz, Vedi mahallarının ortaq yaylağı olan "Əyricə" yaylağında ucaldılmış əzəmətli abidə 700 ilə yaxın idi ki, türk tarixinin yol yoldaşı idi.

"Dərələyəz od içində" kitabında göstərilir ki, ermənilər 1918-1920-ci illərdə Dərələyəzdəki qədim türk abidələrini vəhşicəsinə dağıdıb məhv etmiş, etiraz edənlərin burun-qulaqlarını kəsmiş, ağır işgəncələrlə azərbaycanlıları diri-diri sərt qayalıqlardan dərələrə atmışlar...

Ermənilərin Qərbi Azərbaycan ərazilərinə köçürülüb gətirilməsində A.S.Qriboyedovun böyük xidmətləri olmuşdur. O, yeni yaradılmış erməni vilayətində onların say çoxluğunu təşkil etmək üçün dəridən-qabıqdan çıxmışdı. Ermənilər onun əməyini yüksək qiymətləndirərək İrəvandakı Körpüqulağı məscidini yerlə-yeksan edərək yerində xaç qardaşları A.S.Qriboyedovun heykəlini ucaltmışlar.

1918-ci ildə Qərbi Azərbaycandakı Qarakilsə (Kirovakan) rayonunun Vartana kəndini ermənilər tamam yandırmışlar. Bu kənddən tək-tük yaşlı adam salamat qurtara bilmişdi. Erməni quldur dəstələri Areut kəndinin dəyirmançılarını öldürüb kəndə hücum edən zaman güclü müqavimətə rast gəldilər. Həmin günlərdə artıq türk ordusu köməyə gəlmişdi.

Rus ordusunun generalı, milliyyətcə erməni olan Xatısov ermənilərdən ibarət ordusu ilə ağır faciələr törədirdi. Ağbabalı Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağa yaratdığı süvari alayı ilə Xatısovun ordusuna ağır zərbələr endirdi. Türk ordusu geri çəkilərkən Pəmbəyin 8 kəndinin (Saral, Qursalı, Arkut, Xancığaz, Hallavar, Heydərli, Mollaqışdağı və Kilsə) camaatı Türkiyəyə keçdi. Onlar ara bir qədər sakitləşəndən sonra geri qayıtdılar.



1918-ci ildə daşnak ordusu İrəvan quberniyasında 200 azərbaycanlı kəndini qarət edib, yandırmışdır. 100 min nəfərədək azərbaycanlı Nor Bayazid, Sürməli, İrəvan, Eçmiədzin və Şərur qəzalarını tərk etməyə məcbur olmuşdur.

1918-1920-ci illərdə erməni daşnakları Dərələyəz mahalının Ağca, Axta, Almalı, Biləy, Bulaqlar, Çaykənd, Çıraxlı, Ceyranlı, Cül və digər kəndlərdə də azərbaycanlılara qarşı qırğınlar törətmişlər.

1948-1953-cü illərdə Qərbi Azərbaycandakı soydaşlarımız yenidən deportasiyaya məruz qalmış, 150 min azərbaycanlı "könüllülük" prinsipi əsasında doğma yurdlarından Azərbaycanın Kür-Araz ovalığına köçürülmüşdür.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başlamış, Mixail Qorbaçov və digər ermənipərəst qüvvələrin xəyanəti ucbatından 1988-ci ilin şaxtalı qış aylarında 300 min soydaşımız Qərbi Azərbaycandakı ata-baba yurdlarını məcburən tərk etmişlər.

Qərbi Azərbaycan həsrətli insanlardan biri də mənəm. Əslən Dərələyəz mahalındanam. Yaşadığımız ərazi Kəlbəcər, Göyçə mahalı və Cermuk sanatoriyasına yaxın idi. Uşaqlıq illərim başı buludlardan nəm çəkən atlas geyimli dağların qoynunda keçib, göy çəmənlər döşəyim, sal daşlar yastığım olub, heç vaxt şərbət bulaqların suyundan doymamışam. Çox tezliklə o yerlərə dönmək, Dərələyəzə qucaq açmaq istəyirəm...

**Gəray QULUYEV,**
**Bakı şəhər Nərimanov rayonu Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Şurasının sədri.**